Kazus 1

1997-ci il tarixində Samir Həsənli Bakışəhəri, Sabunçu rayonundafiziki şəxsin mülkiyyətində olan 0.6 ha torpaq sahəsi alır. Həmin torpaq sahəsində tikintiyə rəsmi icazə verilməsi üçün 1 il ərzində 8 dəfə müvafiq icra hakimiyyətinə müraciət etsə, onun də müraciətləri cavabsız qalır.

Ərizəçiyə şəhər icra hakimiyyəti tərəfindən satılmış torpaq sahəsinin təyinatının mənzil tikintisinə hüquqən imkan tanımadığı şifahi qaydada bildirilir. Həmçinin ərizəçiyə o da bildirilir ki, ərizəçi mənzili tiksin və gələcəkdə həmin ərazidə artıq tikilmiş çox saylı mənzillərin mövcud olmasına görə yuxarı orqanlar tərəfindən müvafiq qanunların qəbulu ilə müvafiq sənədləşmələr aparılacaq. Rəsmi şəxslər bildirdilər ki, bu prosesdə icra qurumları tikintiyə müdaxilə etməyəcək.

Bundan sonra ərizəçi 1998-ci ilin yanvar ayında sözügedən torpaq sahəsində 2 mərtəbəli evin tikintisinə başladı. Həmin ilin sentyabr ayında evin birinci mərtəbəsinin tikintisini başa çatdırdı. İkinci mərtəbənin tikintisi yarımçıq qalmaqla bərabər, ərizəçi özü və ailəsinə məxsus bütün əşyalarını(əvvəl yaşadığı qardaşının evindən) həmin ilin dekabr ayında qismən hazır olan evin birinci mərtəbəsinə gətirdi. 1999-cu ilin yanvar ayında isə ərizəçi ailəsi ilə birlikdəRusiyanın Moskva şəhərinə işləməyə getdi. Ərizəçi 3-4 ildən bir ailə üzvləri ilə birlikdəBakı şəhərinə gəlir və qohumlarına, həmçinin tikintisi yarımçıq qalmış evinə baş çəkir və qısa müddətdə burada qalırdılar. Tikintisi hələ tam başa çatmadığı üçün soyuq aylarda bu evdə uzun müddət qalmaq mümkün olmurdu.

2010-cu il ərzində Rusiyada işlərinin pis getməsi ilə əlaqədar ərizəçi və onun ailəsi Bakı şəhərinə gəlmək məcburiyyətində qalır. 5 fevral 2010-cu il tarixində ərizəçi yarımçıq qalmış tikilinin başa çatdırılması üçün ona məxsus torpaq sahəsində yerləşən tikintisi başa çatmamış evdə müəyyən təmir işləri (tavanın üzərinin bərkidilməsi, çöl divarın suvanması, həyətin divarlarının qaldırılması və.s) görmək istəyərkən icra hakimiyyətinin nümayəndələri tərəfindən müdaxilə məruz qalır. Ərizəçi icra hakimiyyəti nümayəndələrinin onun torpaq sahəsinə daxil olaraq ona şifahi qaydada tikinti aparılmasını dayandırması tələbini irəli sürürlər. Bu tələbləri qəbul etməyən ərizəçi Bakı şəhərində yaşayış yeri olmadığı üçün tikintini dayandırmayacağını və onun burada məskunlaşmaqdan başqa əlacı qalmadığını bildir. Bu şifahi mübahisədən iki gün sonra icra hakimiyyətinin nümayəndələri polis nəfərlərinin müşahidəsi altında tikintini ərizəçinin və onun ailə üzvlərini zorla evdən kənarlaşdıraraq buldozer ilə tikintisi başa çatmamış evi dağıdırlar.

- Suallar:
    - **8-ci maddənin təsir dairəsinə düşən pozuntu varmı, varsa nəzərdə tutulan hansı hüquq(lar) pozulub?**

  Fikirlərinizi əsaslandırın.

Kazus 2

Azər Məmmədov Gəncə şəhərində tikintisi başa çatmamış həyət evinin girişində 25 kv.m sahəsi olan otaqda 3-ildir ki, bərbərlik xidmətləri göstərir. A.Məmmədov bərbər xidməti göstərdiyi yerin onu daimi yaşadığı evə uzaq olduğu üçün tez-tez burada (bərbərxanada) gecələyir.

10.05.2015-ci il tarixində vergi orqanın əməkdaşı B hasarı bir metr olan həyət evinin divarını keçərək yarımçıq tikilinin həyətinə daxil olur və bərbərxanın həyətdən girişi olan qapısını zorla itələyərək açır və içəri daxil olur. Bu zaman vergi əməkdaşı içəridəki əşyaları siyahıya almaq üçün vergi orqanın müvafiq qərarını ərizəçiyə təqdim edir. Buna etiraz edən A.Məmmədov ondan bərbərxananı tərk etməsini tələb etsə də, vergi əməkdaşı otağın, əşyaların və A.Məmmədov və onun müştərisinin fotosunu çəkir.

Sual:

- **Müdaxilə 8-ci maddədə təminat altına alınan hüquqların pozuntusunu iddia etmək olarmı ?**

Fikirlərinizi əsaslandırın

Vergi əməkdaşı bərbərxanaya məhkəmə qərarı və polis müşahidəsi ilə gəlsəydi suala cavabınız hansı formada olardı?

Kazus 3

V.Aleksandr Tiflis şəhərində polis şöbəsində polis nəfəri işləyirdi. O, 22 noyabr 2010-cu il tarixində Gürcüstan DİN-in yüksək rütbəli zabitlərinin qanunsuz əməlləri ilə bağlı mətbuata tənqidi açıqlama vermişdi. Səhərisi gün işə gələrkən Nazirlikdən iki yüksək rütbəli əməkdaşın onun masasında əyləşdiyini və onu sorğu suala çəkməsi ilə qarşılaşdı. Aleksandr iş masasına yaxınlaşdıqda onun sənədlərinin, şəxsi əşyalarının axtarıldığını müşahidə elədi. Bundan sonra ona öz şəxsi əşyalarının toplandığı kağız qutu və işindən azad olunması haqqında polis rəisinin qərarı təqdim edildi.

Sual:

- **Müdaxilə 8-ci maddədə təminat altına alınan hansı hüququn pozuntusunu təşkil edir ?**

Fikirlərinizi əsaslandırın

Kazus 4

Faktlar - İxtisasca Vəkil olan ərizəçinin ofisində axtarış aparılmışdı. Ərizəçi ərizəsində iddia edirdi ki, onun 8-ci maddə də nəzərdə tutulan şəxsi həyata hörmət hüququna və yazışma sirrinə hörmət huququ dövlət orqanlarının ofisdə axtarış aparması ilə ifadə olunan hərəkətləri nəticəsində pozulub. Dövlət isə şikayətə etiraz edərək bildirdi ki, 8-ci maddə "Vəkil kontorunda" axtarışdan müdafiəni təmin etmir, belə ki, konvensiya bir tərəfdən şəxsi həyat və mənzil arasında, digər tərəfdən isə işguzar həyat və xidməti otaqlar arasında dəqiq sərhəd müəyyən edir. Belə olan təqdirdə isə dövlət öz hərəkəti ilə ərizəçinin 8-ci maddə də hüquqlarını pozmamışdır.

Suallar:

1. **8-ci maddənin pozuntusu varmı, varsa nəzərdə tutulan hansı hüquq pozulub?**

Fikirlənizi əsaslandırın

Hazırladı: Emin Abbasov